# Onun “edam” hekayəsi...

**Sevinc Nuruqızının doğum gününə**



...Sevinc Nuruqızını “Pərvanə” ədəbi məclisindən tanıyıram. Sonra “Mədəniyyət” qəzetində onunla daha yaxından ünsiyyətdə oldum. Qəzetin bir əməkdaşı qonorarı ilə həmişə tort alıb redaksiyaya gətirəndə Sevinc məni də unutmazdı. Onda mən başqa redaksiyada onunla eyni mərtəbədə çalışırdım. Heç yadımdan çıxmaz. Bir dəfə “Novruz” bayramında evində bişirdiyi şirniyyatdan mənə bir sumka bağlayıb gətirməyi. O, təkcə mənə qayğı göstərmirdi. Bəlkə heç tanımadığı birinə də diqqətini əsirgəmirdi. Uşaq evlərinə gedib öz əlləri ilə körpələrə qulluq edən Sevinc Nuruqızını Allah başqa cür yaradıb. Onu gözümdə ucaldan ibadəti ilə yanaşı həm də xeyir əməlləri olub.

Bu yaxınlarda “ATV”də yayımlanan “Zərif qəhrəman” adlı verilişdə öz həyat hekayəti ilə tamaşaçı diqqətini cəlb elədi. Əvvəllər uşaqları, yaxınları üçün sadə nağıllar, şeirlər yazan Sevinc bilməzdi ki, bir gün 40- dan artıq kitabın müəllifi, müsabiqələr qalibi kimi sayılıb-seçilən bir müəllifə çevriləcək. Bu verilişdən sonra neçə xanım zəng edib, onunla görüşmək, dərd-sərini bölüşmək istəyib.

Allah ondan heç nəyi əsirgəməyib. İstedad, gözəl davranış, səbr, ağıl, sevgi... Onun başqaları üçün necə çırpındığının indi də şahidiyəm, amma bilirəm ki, onun elədiklərinin çoxundan xəbərim yoxdu. Ondan ki, bunları dilinə gətirməz.

Bu il onun üçün çox uğurla başladı. Mədəniyyət və Turizm Nazirliyinin “Qızıl kəlmə” ədəbi müsabiqəsində “Qədim Bakıya səyahət” kitabına görə nominant oldu. Sonra Türkiyənin Azərbaycandakı səfirliyinin AYB ilə birgə keçirdiyi “Çanaqqala -100” adlı müsabiqədə şeir nominasiyası üzrə “Çanaqqala keçilməz” adlı poemasına görə 1-ci yerə layiq görüldü. Və bir də onun “Ədəbi azadlıq” müsabiqəsində 2-ci yeri tutan “Edam” hekayəsi... Bu hekayə mənə elə təsir etdi ki, neyləsəm dəmir borunun içərisində həyəcandan çırpınan, körpə ürəkləri şan-şan edilən Qarabağ uşaqlarını unuda bilmirəm. İndi bu sətirləri yazanda da ürəyim elə çırpınır ki... Ağlamaq nədir ki, dəhşətdən donuram, müsibətdən darmadağın oluram. Düşünürəm ki, bu adi sözlə ifadə olunmayan dərd, bu qan, günahsız körpələrin ahı yerdə qalarmı, Allah, qalarmı?!

...Deyirəm, Sevinc, axı sən bu dəhşəti necə yaza bilirsən ki, ürəyin dayanmır, necə ölüb-dirilə bilirsən axı?... Deyir heç özüm də bilmirəm mən bu hekayəni necə yazmışam. Müəllif yazdığını yaşayır axı...

***...Vətən, Qaraqayanam,***
***Bu gün sənə hayanam.***
***Bu boyda müsibətə***
***Çətin duram, dayanam.***

Onun “Xocalı” poemasını oxuyanda Sevincin Qarabağın hər daşına, qayasına necə bələd olduğuna və yurdun hər qarışına sonsuz sevgisinə şahid oldum.

Gördüyünüz kimi, mən onun adı çəkiləndə həmişə birinci söylənilən “uşaq yazıçısı”sözünü hələ qeyd eləmədim. Ondan ki, digər oxucuları kimi mən də onun təkcə uşaqlar üçün deyil, həm də bütün oxucular üçün necə dəyərli əsərlərin müəllifi olduğunun şahidi oldum.

22 iyun Milli Mətbuat Günü, həm də jurnalist, yazıçı Sevinc Nuruqızının doğum günüdü. Ona bütün oxucuları adından can sağlığı, həmişə zirvələrdə olmağı arzulayıram!

**Mina RƏŞİD**